# MİLLİ MƏNLİK ŞÜURUNUN FORMALAŞMASI HAQQINDA

Bəsti QASIMOVA*

**Xülasə:** Məqalədə müasir mərhələdə millət ideyası milli mənlik şüurunun təzahür formalarından biri kimi təhlil edilir. Milli mədəniyyət, sağlam millətçilik, eləcə də milli dövlət suverenliyi ideyası məcmu şəkildə milli mənlik şüurunu yaradaraq bunu müasir milli inkişafın aparıcı qüvvəsi, beynəlxalq və regional səviyyədə millətin, xalqın imicini müəyyən edən mühim sosial göstəricilərdən biri kimi göstərilir.
Milli mənlik şüuru, məhz öz etnik əlamətlərinə görə tarixən daha sabit, daha mühafizəkar fenomendir.
Məhz milli mənlik şüuru millətin real subyekt kimi mövcudluğunu, müəyyən mənəvi dəyərlərin, ənənələrin, həyat tərzinin daşıyıcısı kimi çıxış edir. Onun məna çalarları təsdiq edir ki, bu formada millət özünü məhz öz tələbatları və maraqları olan sosial varlıq kimi başa düşür. Millətin həyatının hər bir tarixi mərhələsinin reallıqları ilə bilavasitə bağlı olan milli mənlik şüuru, bir növ ictimai varlığı, xüsusilə də milli varlığı həssas duyan və inikas etdirən fenomendir.
***Açar sözlər:*** *millət-etnos, milli mənlik şüuru, millətçilik, milli mədəniyyət, millət ideyası.*

**About the Formation of National Consciousness**

**Abstract:** In the article the idea of a sovereign nation at the modern stage is being analyzed as one of the manifestations of national consciousness. National culture, robust nationalism, as well as the idea of national sovereignty create national consciousness, and this is regarded as an important social indicator which is a leading force of modern national development and defines the image of the nation at the international and regional level.
National self-consciousness is a historically more stable and conservative phenomenon. It is precisely the national self-consciousness that acts as carrier of the nation's existence as a real subject, of certain spiritual values, traditions, and lifestyle. Its shades of meaning confirm that in this form the nation understands itself as a social entity with its own needs and interests.
National self-consciousness, which is directly connected to the realities of each historical stage of a nation's life, is a phenomenon that sensitizes and reflects a kind of social existence, especially national existence
***Key Words:*** *nationality-ethnos, national consciousness, nationalism, national culture, idea of nationality*

## Giriş

Milli mənlik şüuru birdən-birə və hazır şəkildə meydana çıxmır. Onun əsas postulatları və xassələri obyektiv tarixi şəraitin tələbatı və zərurətinə müvafiq surətdə millətin qabaqcıl nümayəndələri tərəfindən tədricən yaradılır və sonradan millətin bütün üzvlərinə yayılır. Buradan aydın olur ki, milli mənlik şüurunun formalaşması uzunmüddətli proses kimi çıxış edir. Onun tarixi təşəkkülü və köklərinin izahına "millət ideyası"ndan başlamaq tələb olunur. Hazırda həmin ideyanın genezisi və mahiyyəti bir çox cəhətdən yeni tərzdə mənalandırılır. Bu baxımdan millət ideyasının sosial Polşa "Həmrəylik" hərəkatının ideoloqlarından biri Adam Mixnikin "Millətçilik kommunizmin son fazasıdır" ifadəsi tədqiqatçılarda böyük maraq oyatmışdır, əslində bu ideya, millətçilik, millət ideyası anlayışlarının təhlilinə yanaşmada yeni istiqaməti müəyyənləşdirmişdir. (Михник А., 1991, s.35) Bu gün millət ideyasının yaranması, milli şüur, müasir milli proseslər ətrafında qızğın, lakin ziddiyyətli elmi mübahisələr hələ də səngimək bilmir. Bu, heç şübhəsiz ki, millət ideyasının, milli mədəniyyət və milli mənlik şüurunun aktuallığı ilə bağlıdır. Tədqiqatçı V.A.Tişkovun fikrincə, millət ideyasının genezisini mütləq monarxiyaların və müstəmləkə imperiyalarının dağılma səbəbində axtarmaq lazımdır. Onun əqidəsincə, millət ideyası elə bir substansional fenomendir ki, vətəndaş cəmiyyəti onun köməkliyilə suverenliyə və demokratik hakimiyyətə malik olmuşdur. Müəllif problemə daha geniş yanaşaraq göstərir ki, millət ideyası yeni dövrdə demokratiyanın hüquqi və ideoloji əxlaqi əsaslandırılmasıdır. (Тишков В.А., 1992, s.9-33)

Ümumiyyətlə, düzgün deyilmiş bu mülahizəyə müəyyən aydınlıq gətirmək tələb olunur. Məsələ burasındadır ki, monarxiyaların və müstəmləkəçi imperiyaların dağılması özbaşına yaranan sosial – siyasi proseslər olmamışdır. Bu prosesdə millətçilik hərəkatları müstəsna əhəmiyyət kəsb etmişdir. Öncə qeyd edək ki, tarixən millət və dövlət, yəni hər bir etnos dövlətlə qarşılıqlı şərtlənmədə və qarşılıqlı əlaqədə olmuşlar. Millət – etnos tarixi inkişafın gedişində bu və ya digər dərəcədə siyasi cəhətcə səfərbər olunaraq "millət - dövlət" statusunu qazanır. (Haysl

* Azərbaycan Tibb Universiteti, İctimai fənlər kafedrası, e-mail: aliyeva_basti@mail.ru

K., 1996, s.33) Əslində millət ideyasının təzahürü olan "millət - dövlət" fenomeni insan cəmiyyətindəki müxtəlif proseslərin və strukturların arasında çox saylı qarşılıqlı əlaqələrin mürəkkəb məcmusudur. Belə yanaşdıqda, həmin anlayış coğrafiyadan psixologiyayadək bir çox elmlərin tədqiqat obyekti ola bilər. Eynilə də insan mürəkkəb sistem olaraq, müxtəlif təbiətşünaslıq və humanitar elmlər tərəfindən öyrənilir. Üstəlik də, hər bir elmin öz yanaşma metodları vardır. Bunu təqribən "millət – etnos"  kateqoriyasının tədqiqinə də aid etmək olar. Bu yanaşmaları rəhbər tutan mütəxəssislər, çox zaman, millətlərin vəziyyəti, millət ideyasının formalaşması barədə ən ümumi təsəvvürlərə malikdirlər. Millət ideyasının yaranma səbəbi, strukturu, dinamikası və inkişafı müxtəlif cür izah edilir. Problemə yanaşmaların çoxluğu müsbət hadisədir, bununla yanaşı onun həllində fənlərarası metodologiyaya ehtiyac duyulur. Bu yanaşmanın başlıca funksiyası millət – etnos fenomenini və millət ideyasını birtərəfli interpretasiya etməkdir. Fənlərarası yanaşmada birinci addım müxtəlif elm sahələrinin mütəxəssislərinin professional əməkdaşlığı əsasında millət – etnos haqqında öz təsəvvürlərini və tədqiqatların nəticələrini əlaqələndirməkdir. Onun sosial – fəlsəfi əhəmiyyətini artıran bir amil də dünyanın siyasi mənzərəsini müəyyən edən müasir milli oyanışdır. Sonuncu, özünü iki aspektdə göstərir: milli müstəqillik uğrunda mübarizə zəminində oyanış və milli özünüidentifikasiya prosesi (bunun bariz nümunəsi keçmiş Sovetlər İttifaqının dağılmasıdır) və qlobal dünya hadisəsi olan inteqrasiya prosesinin obyektiv təzahürü. Hər iki prosesin fonunu qloballaşma şəraitində xalqların və millətlərin artmaqda olan milli şüurunun oyanışı təşkil edir. Bir çox qərb ekspertləri imperiyaların dağılmasında milli oyanış faktorunun rolunu xüsusilə qeyd edirlər. Hər halda təcrübə göstərir ki, müstəmləkə şəraitində zülm və əsarətdə olan xalqların şüuru daha tez oyanır.

Ümumiyyətlə, "millət" və "millətçilik" anlayışları bir – birilə qarşılıqlı əlaqədədirlər, lakin onların fenomenliyi, mənası üst – üstə düşmür. Nəzərə alaq ki, rus – sovet və qərb elmində və siyasi praktikasında "millət" kateqoriyasının tərifinə müxtəlif yanaşmalar mövcuddur. Əgər rus – sovet elmində millət tarixi inkişafın gedişində formalaşan etnosun ali mövcudluq tipi hesab olunursa, qərb ənənəsi onu tarixən şərtlənmiş siyasi birlik kimi başa düşür. (Мухаметщина Н.С., 2003, s.34-46)

Millət ideyası zaman keçdikcə - yeni keyfiyyətdə çıxış etmiş millətçilik hərəkatını istiqamətləndirən, totalitarizm sisteminin süqutunda sosial – siyasi səfərbərlik vasitəsi olmuşdur. Bu məqama diqqət yetirmək, keçid dövründə milli mənlik şüurunu öyrənmək, bu prosesdə millətçiliyin rolunu düzgün qiymətləndirmək və millət ideyasının səfərbəredici amil kimi yerini müəyyənləşdirmək baxımından vacibdir. İmperiya bürokratik sisteminin dağılmasında millətçilik hərəkatlarının mühüm rolu şəksizdir. Təbii ki, müxtəlif siyasi mədəniyyətlərin və xalqların siyasi fəallığının eyni səviyyəli olmaması özünün müvafiq ifadəsini totalitar rejimə qarşı mübarizədə də tapmışdır. Bununla birlikdə keçmiş sovet gerçəkliyi, (xüsusilə də onun son dövründə baş verən hadisələr), habelə postsosializm reallıqları bir daha göstərdi ki, yeni sosial – iqtisadi strukturların və siyasi elitaların formalaşması, bütövlükdə sosiomədəni mühitin köklü surətdə yeniləşməsi millətçilik, millət ideyası faktoru olmadan mümkün deyildir.

Sovet dövründə proletar beynəlmiləlçiliyi müxtəlif millətlərdən olan fəhlələrin ictimai və mədəni bərabərliyini, hüquq bərabərliyini elan edirdi. O dövrdə sovet cəmiyyətində rəsmi dövlət dili anlayışı yox idi. Rus dilinin Sovet İttifaqında rəsmi dil olmasını təsdiqləyən heç bir yazılı, hüquqi, rəsmi sənəd mövcud deyildi. Sovet qanunları rus dilinə nəinki belə imtiyaz verməmiş, əksinə, analoji cəhdləri sovet qanunlarına, elmi kommunizm təliminin müddəalarına zidd addım kimi rədd etmişdir. Əgər sovet dövründə rus dili "ümumittifaq dili" statusu daşımışdırsa, bu sovet qanunlarından yox, sadəcə çoxmillətli bir ölkədə ümumi anlaşma ehtiyacından doğan ictimai konsensusun nəticəsi olmuşdur. Sovet dövründə rəsmi yazışmalar, təhsil, hamısı yerli xalqların dilində həyata keçirilirdi. O dövrdə hər bir etnik çoxluq həmin bölgədə öz dilini sərbəst istifadə edə bilirdi. Məsələn, Gürcüstan SSR-də yaşayan azərbaycanlı

əhali öz ana dilində təhsil alır və öz xalqının tarixini öyrənirdi. Öz növbəsində Azərbaycan SSR-də yaşayan qeyri-azərbaycanlılar da mənsub olduqları xalqın dilini və tarixini öyrənirdilər. Müqayisə üçün deyək ki, bu gün "demokratiyanın beşiyi" kimi təqdim olunan ABŞ- da elə böyük şəhərlər var ki, əhalisinin 60- 70%-i qeyri-ingilis dilli əhali olmasına baxmayaraq, tədris ancaq ingilis dilində aparılır və həmin xalqların öz dilində bir dənə də olsun məktəbləri mövcud deyildir. Müasir qərb düşüncə tərzi milli identikliyi qəbul etmir. Burada yalnız "qərb dəyərləri", "beynəlxalq standartlar" mövcuddur. Onların məzmununda isə milli, etnokultural identikliyə yer yoxdur. Amma bu ölkələr öz geopolitik maraqlarını üçüncü dünya ölkələrinə, periferiyalara qəbul etdirmək üçün "milli", "dini" kartlardan məharətlə istifadə edirlər. Bu əslində millətçiliyin mütərəqqi anlamından uzaqlaşmaq, destruktiv millətçilik deməkdir.

Hans Kon adlı tədqiqatçı "Millətçilik ideyası" əsərində "qərb millətçiliyini rasional, vətəndaş millətçiliyi, şərq millətçiliyini isə irrasional, etnik millətçilik" adlandırır. Onun fikrincə, birinci tip qabaqcıl Avropa ölkələri və ABŞ, ikinci tip isə Almaniya, Rusiya, Şərqi Avropa və bir sıra Şərq ölkələri üçün səciyyəvidir. İngilis tarixçisi D.Breyli "millətçiliyin xüsusi forması – islahatçı millətçilik" konsepsiyasını irəli sürür. O, ilk dəfə olaraq, bu növ millətçiliyi rəsmi sayır, çünki burada siyasi strukturların milli əsaslar üzərində dəyişdirilməsinin təşəbbüskarları qismində siyasi elitalar çıxış edirlər. Onun fikrincə, islahatçı millətçilik bir sıra Qərbi Avropa ölkələrində, Türkiyədə, Yaponiyada, Çində həyata keçirilmişdir. Ümumilikdə götürdükdə millətçilik ideyası milli şüurun və milli mədəniyyətin araşdırılmasında aparıcı anlayışlardan biri kimi çıxış edir. Həmin anlayışa lazımı diqqət yetirilmədikdə etnosun bir sosial sistem kimi öz təsəvvürlərini idarə etmək qabiliyyəti məhv edilmiş olur. (Мамардашвили М.К., 1968, s.14-25)

Bütövlükdə, milli mənlik şüuru, məhz öz etnik əlamətlərinə görə tarixən daha sabit, daha mühafizəkar fenomendir. Bunu ondan görmək olar ki, bir ictimai – iqtisadi formasiyadan digərinə keçildikdə sosial həyatın əsasları dəyişilir, lakin millət sabit qalır, yəni öz etnik xarakteristikalarını saxlayır. Bu millətin dilində, mədəniyyətində, ənənələrində, adətlərində, psixologiyasında, mentalitetində, bir sözlə onun "simasını yaradan" bütün komponentlərdə özünü göstərir. (Güstav le Bon., 2006, s.19) Millətin mənlik şüuru da məhz bu tərəflərin məcmusu kimi çıxış edir.

Milli mənlik şüurunun və milli mədəniyyətin məzmun keyfiyyətinin formalaşmasında xalqın fəlsəfi irsi mühüm əhəmiyyət kəsb edir. Məsələ burasındadır ki, onların hər ikisi millətin, pozitiv millətçiliyin əlamətləri olmaqla, insanın idraki fəaliyyəti prosesində aparıcı elementlər kimi çıxış edirlər. Özünüdərkə ehtiyac duyan fərd ilk növbədə öz milli xüsusiyyətlərini də başa düşməyə çalışır. O, buna insan birliyinin, xalqının milli varlığının səciyyəsini anlamaqdan başlayır. Bu obyektiv tələbat, həm də sosiomədəni irsin bəşəriyyət miqyasında əlaqələndirilməsində və ortaq məxrəcə gətirilməsində fəlsəfi irsin mühüm rolunu üzə çıxarır. Məhz onun sayəsində mədəni – nəzəri fikir tarixi təkrarlardan, perspektivsiz kənara çıxmalardan təmizləndikdən sonra müasir fəlsəfi təfəkkür səviyyəsilə yüksəlir. Odur ki, keçmiş mədəni – fəlsəfi irsə öz layiqli payını vermiş filosoflar, həm də müasir fəlsəfənin yaradıcıları, müəllifləri kimi çıxış edirlər. Bununla əlaqədar qeyd edək ki, mədəni – fəlsəfi irs öyrənilərkən informasiya bolluğuna, tarixi təfərrüatlara aludə olmaq lazım deyil, buradakı aparıcı ideyalar, yaşarlı fikirlər ön plana çəkilməlidir. Sözügedən fəlsəfi - tarixi reduksiya canlı, intellektual yaradıcılıq prosesi olub, şəxsiyyətin milli xüsusiyyətlərinin formalaşmasında müstəsna rol oynayır. Bu təsadüfi olmayıb onunla izah edilir ki, keçmişin bir çox filosofları millət, millətçilik və milli mənlik şüuru barədə həm öz dövrü, həm də müasir həyatımızla aktual səslənən ideyalar irəli sürmüşlər. Onlar özlərindən əvvəl yaranmış təlimləri və faktları dərindən öyrənərək millətin əlamətləri içərisində vahid ərazini, iqtisadi həyatı, ümumiliyini, dili, mədəniyyəti, psixoloji birliyi göstərmiş, millətin formalaşmasında və inkişafında milli dövlətçiliyin mühüm əhəmiyyətini qeyd etmişlər. Bu ideyalar millət anlayışının tərifini vermək üçün bu gün də zəruri elmi əsas rolunu oynayır. Lakin hazırda həmin ənənəvi, geniş istifadə olunan nəzəri ideyalar,

elmi materiallar kifayət etmir. Üstəlik, onlar həm də müəyyən deformasiyaya məruz qalmışlar. Deyilənlər sübut edir ki, millət ideyasının əsaslandırılması məsələsində yalnız klassiklərin əsərlərində bu barədə deyilmiş fikirlərlə kifayətlənmək olmaz. Burada bizcə, daha düzgün yol onların metodoloji prinsiplərindən, cəmiyyət haqqında ümumi nəzəri müddəalarından çıxış etməklə yanaşı yaşadığımız dövrün reallıqlarının gətirdiyi dəyişiklikləri və yenilikləri nəzərə almaq lazımdır. Keçmiş fəlsəfi irsdə bir qayda olaraq, millət anlayışına yalnız obyektiv, millətin "varlıqla" bağlı əlamətləri daxil edilirdi. Belə yanaşma metodoloji baxımdan birtərəfli səslənir, çünki həmin anlayışın məzmununda subyektiv tərəflər, mənəvi-psixoloji keyfiyyətlər, mənəvi mədəniyyət və milli mentalitet və digər amillər artmaqda olan rol oynayır.

Ümumiyyətlə, qeyd edilməlidir ki, keçmişdə sinfi yanaşmanın mütləqləşdirilməsi səbəbindən başqa məsələlərdə olduğu kimi, millət ideyasının izahında da, nəzəri – praktik qüsurlara yol verilmiş, obyektiv faktorların rolu şişirdilmiş, xalqın yaradıcı, subyektiv fəaliyyətinin əhəmiyyətinə lazımi diqqət yetirilməmişdir. Digər tərəfdən millət ideyasının təhlili bilavasitə unitar – totalitar dövlətçiliyin ideologiyası və praktikası ilə əlaqələndirilir, insanların fəaliyyətinin subyektiv çalarları isə elmi baxımdan öyrənilmirdi. Bu qüsurlar bir çox hallarda ictimai həyatın, tarixin real subyektləri olan millətlərin ümumi statusunun bəsitləşdirilməsi ilə nəticələnirdi.

Buna görə də, biz millət anlayışının "obyektləşdirilməsinin" əksini təşkil edən subyektiv yanaşmanı əsaslandırarkən belə bir ideyadan çıxış etmək lazımdır: insanların tarixi birlik forması olan millətin müəyyənedici əsası insanların öz fəaliyyətidir. Məhz bu prosesdə insanlar nəsillərdən nəsillərə formalaşaraq millətə çevrilir və milli inkişaf, millətlərarası münasibətlər subyekti kimi çıxış edirlər. (Grosby Steven, 2005, s.7) Beləliklə, millət anlayışına mənəvi faktorların daxil edilməsi buradakı təsadüfi xarakterli məqamları aradan qaldırır. Bu anlayışın tərifinə "xalq ruhu" faktorunun daxil edilib edilməməsi isə insanların fəaliyyətinin və ünsiyyətinin təhlili kontekstində həll edilir. İnsanların fəaliyyətini şərtləndirən obyektiv zərurət onların beynində, şüurunda, təsəvvürlərində ideal "sövqedici qüvvələr", "motivlər" fəaliyyətin bilavasitə stimulları şəklinə düşürlər. Biz Olşanskinin belə bir nəticəsi ilə razıyıq ki, milləti tarixin subyekti kimi təqdim edərkən, onun fəaliyyətini ümumi şəkildə bilavasitə müəyyən edən faktorlar göstərilməlidir. (Ольшанский А.В., 2002, s.73) Sonuncular daha çox milli hərəkatlarda üzə çıxır. Bu halda faktorların seçilməsi meyarları da mühüm şərtdir.

Millətçilik iki cür başa düşülür: birinci, etnik təcridlik və bir etnik birliyin digəri üzərində prioritetliyi- etnik diskriminasiya kimi, ikincisi, elə bir prinsipdir ki, onun müstəvisində xalqlar öz mədəni özünəməxsusluğunu saxlamaqla "öz siyasi tavanları altında yaşamağa" çalışırlar, öz dövlətçiliyini yaratmağa can atırlar. Deməli, millətçilik mahiyyətinə və nəticələrinə görə müxtəlif ola bilər.

Qeyd edək ki, millətçiliyin bu cür anlamı Qərb sosial fəlsəfəsində xeyli əvvəl işlənmişdir. Postsovet məkanında millətçilik bəzən ekzistensial mahiyyət kəsb edərək vətənpərvərliklə eyniləşdirilmişdir. Lakin millətçilik probleminin elə bir aspekti var ki, onun qeyd edilməsi xüsusilə vacibdir. Söhbət demokratiya ilə millətçiliyin münasibətlərindən gedir. Bəzi nəzəriyyəçilərin mövqeyinə görə, vətəndaş millətçiliyi demokratiyanın labüd atributudur.

**Nəticə**

Məhz milli mənlik şüuru millətin real subyekt kimi mövcudluğunu, müəyyən mənəvi dəyərlərin, ənənələrin, həyat tərzinin daşıyıcısı kimi çıxış edir. Onun məna çalarları təsdiq edir ki, bu formada millət özünü məhz öz tələbatları və maraqları olan sosial varlıq kimi başa düşür. Millətin həyatının hər bir tarixi mərhələsinin reallıqları ilə bilavasitə bağlı olan milli mənlik şüuru, bir növ ictimai varlığı, xüsusilə də milli varlığı həssas duyan və inikas etdirən fenomendir. Bu fenomen, inikas prosesində öz məzmununa elə ictimai hissləri, ehtirasları və ideyaları daxil edir ki, bunlar öz növbəsində millətin milli maraqların daşıyıcısı, millətlərarası münasibətlərin və milli hərəkatların subyekti kimi fəaliyyətinin bütün əsas ideal sövqedici qüvvələrini müəyyən edir. Sözügedən məqam eynilə tarixdə millətin formalaşması

proseslərində, onun həyatının, inkişafının bütün mərhələlərində qanunauyğunluq kimi özünü göstərir. Özündə milli mədəniyyəti və milli şüuru birləşdirən milli mənlik şüurunun fəallığı hər iki fenomenin hazırki məqamda daha mühüm olan tərəflərini aktuallaşdırır, milli inkişaf tarixində inteqrativ "hərəkətverici qüvvə" kimi çıxış edir. Onların millətin tərifinə onun mühüm əlaməti kimi daxil edilməsinin əsası budur. Bu hal ictimai – tarixi praktikaya tam uyğun gəlir. Məhz buna görə də, milli mədəniyyətlə milli mənlik şüurunun dialektik vəhdətdə inkişafı, müəyyən ziddiyyətlərə baxmayaraq, çoxmillətli cəmiyyətdə milli faktor fenomeninin rolunu və funksiyalarını daha da gücləndirir.

Doğrudan da, demokratik islahatlar zəminində iqtisadi, sosial – siyasi, mədəni dəyişikliklər milli mənlik şüurunun inkişafını sürətləndirir, hətta milli formalaşma mərhələsində olan millətlərin birləşməsi, müasir millət kimi təşəkkülü, vaxtilə milli məsələ sahəsində yığılıb qalmış problemlərin həlli üçün geniş imkanlar açılır.

**KAYNAKÇA**

Михник А. Национализм: чудовище пробуждается // «Политика» (Эстония) 1991, №2, с.35

Тишков В.А. Социальное и интернациональное в историко – антропологической перспективе. // «Вопросы философии», М.1992, №12, с.9- 33, 174 с

Haysl K. Essays on Nationalizm. New York 1996, 117 pages.

Мухаметщина Н.С. Современные методологические и теоретические подходы к феномену национализма. //Социология и социальная работа. Самарский государственный архитектурно-строительный университет 2003, № 3(29), с.34- 46

Breuilly John, "The Oxford Handbook of the History of Nationalism", Oxford University Press, United Kingdom, 2016, 818 pages

Мамардашвили М.К. Анализ сознания в работах Маркса. // М., «Вопросы философии», 1968, № 6, с. 14-25

Ольшанский А.В. Политическая психология. СПБ, Питер. 2002, 576 с